Sizlərdən birinizin yaradılışı (embrion) anasının bətnində qırx gündə cəm edilir

Əbu Abdurrahman Abdullah bin Məsud (Allah ondan razı olsun) belə demişdir: Doğru söz sahibi və doğruluğu təsdiqlənmiş Allah Rəsulu (səlləllahu aleyhi va səlləm) bizə belə buyurdu: "Sizlərdən birinizin yaradılışı (embrion) anasının bətnində qırx gündə cəm edilir, sonra həmin müddətdə laxtalanmış qana çevrilir, sonra növbəti qırx gündə ət parçasına çevrilir, sonra ona mələk göndərilir və mələk ona ruh üfürür. Ona dörd şeyi: ruzisini, əcəlini, əməlini, bədbəxt və ya xoşbəxt olacağını - yazmaq əmr edilir. Özündən başqa heç bir ilah olmayana and olsun ki, sizlərdən biriniz Cənnət əhlinin əməlini edər, onun Cənnətə daxil olmasına bir qarış qalmış, ana bətnində yazılmış qədəri onu qabaqlayar və o, Cəhənnəm əhlinin əməlini edərək Cəhənnəmə daxil olar. Sizlərdən biriniz Cəhənnəm əhlinin əməlini edər, onun Cəhənnəmə düşməsinə bir qarış qalmış, ana bətnində yazılmış qədəri onu qabaqlayar və o, Cənnət əhlinin əməlini edərək cənnətə daxil olar".

[Səhih] [رواه البخاري ومسلم]

Abdullah bin Məsud (Allah ondan razı olsun) dedi ki, sözlərində düzgün olan və doğruluğu Uca Allah tərəfindən təsdiqlənən Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bizə belə buyurdu: Sizlərdən birinizin yaradılışının mərhələləri bu şəkildədir: Kişi ilə qadın cinsi əlaqədə olduqda kişidən gələn sperma qadının rəhmində qırx gün nütfə (embrion) olaraq qalır. Sonra laxtalanmış qana çevrilir və bu ikinci qırx gündə baş verir. Sonra növbəti qırx gündə bir parça çeynənmiş ətə çevrilir. Sonra Allah üçüncü qırx günün sonunda mələk göndərir və mələk ona ruh üfürür. Bu mələyə dörd şeyi yazmaq əmr edilmişdir: İnsanın ömrü boyu əldə edəcək ruzisi, əcəli, yəni bu dünyada qalacaq müddət və əməlinin nəticəsi: xoşbəxt yaxud bədbəxt olacağı. Sonra Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) and içərək bildirir ki, bir kəs cənnət əhlinin əməlini görür, insanların gözündə əməlisaleh olur, onun cənnətə girməsinə bir arşın qalmış, ana bətnində yazılmış qədəri onu qabaqlayır və o cəhənnəm əhlinin əməlini görərək əməli bitmiş olur və cəhənnəmə daxil olur. Çünki əməlin qəbul olma şərti, onun üzərində sabit olmaq və dəyişdirməməkdir. Başqa bir qrup insan isə cəhənnəm əhlinin əməllərini edir, cəhənnəmə düşməyinə bir arşın qalmış, yazılmış qədəri onu qabaqlayır və o cənnət əhlinin əməlini görərək cənnətə daxil olur.

http://www.sunnah.global/hadeeth/az/show/66513